**UOT 371.1; 371.2**

# MƏKTƏBƏ RƏHBƏRLİYİN PEDAQOJİ, PSİXOLOJİ XÜSUSİYYƏTLƏRİ

*Niftəliyev Nazim Fazil oğlu*
*Niftəliyeva Nərgiz Nazim qızı*
*Mingəçevir Dövlət Universiteti*

Müstəqil Azərbaycan Respublikasında təhsilin əsas vəzifəsi hərtərəfli və dərin biliyə, praktik hazırlığa, məsuliyyət hissinə, yüksək mədəniyyətə, mütərəqqi dünyagörüşə malik və daim özünüinkişafa çalışan, söykökünə, Azərbaycan xalqının demokratiya və azadlıq ənənələrinə bağlı olan və mədəni dəyərlərinə dərindən yiyələnən, onu daim inkişaf etdirən, ailəsini, vətənini, millətini sevən və onu daim ucaltmağa çalışan, milli və ümumbəşəri dəyərlərə yiyələnən və hörmət edən, müstəqil və yaradıcı düşünən, yüksək əxlaqi və mənəvi keyfiyyətlərinə, biliyinə, demokratikliyinə görə dünyanın ən inkişaf etmiş ölkələrin vətəndaşlarının səviyyəsində dura bilən, insan hüquqları və azadlıqlarına hörmət edən, sağlam yurddaşlar yetişdirməkdir ki, bu prosesin də reallaşdırılması bütövlükdə təhsil sisteminin fəaliyyətini xarakterizə edən əsas məqsəddir. Təhsilin pillələri üzrə reallaşdırılan bu məqsədə nail olmaq üçün əsas öhdəlik təhsilin əsaslarını yetişən gənc nəslə ötürən ümumitəhsil müəssisələrinin üzərinə düşür ki, bu istiqamətdə həyata keçirilən bütün fəaliyyət və tədbirlər dövlətin və cəmiyyətin tələblərinə və sosial sifarişlərinə uyğun, təhsilləndirici, tərbiyələndirici və inkişaf etdirici xarakter daşımalıdır.

Cəmiyyətin həyatında baş verən, dövlətin inkişaf xətti ilə xarakterizə olunan yeniləşmələr ümumitəhsil müəssiəsələrinin-məktəblərin idarəetmə funksiyalarının ciddi sürətdə dəyişdirilməsini tələb edir. Məktəbin idarəedilməsində nailiyyətlərin əvvəlcədən proqnozlaşdırılması, şəraitin diaqnostikası və yerinə yetiriləcək vəzifələrin düzgün seçilməsi, cari işlərin

düzgün və zamanında yerinə yetirilməsi əsas məsələ kimi qarşıda durur. Müasir məktəbə bir-birilə qarşılıqlı şəkildə əlaqədar komponentlərdən ibarət bütöv bir sosial pedaqoji sistem kimi yanaşılmalıdır. Bu sistem məktəbin daxilində təşkil edilmiş və xarici mühitlə müəyyən əlaqəyə malikdir. Məktəbin idarəetmə sistemi məktəbi idarə edən və idarə olunan kimi iki yarımsistem qarşılıqlı əlaqədə olub, rəhbər və pedaqoji kollektivi birləşdirən idarəedici yarımsistem aparıcı funksiyaya malikdir. Şagirdlər və onaların təşkilatları isə alt-sistem olmaqla idarəolunan sistemə daxildirlər [1, səh.132].

Məktəb cəmiyyətin özəyi, onun inkişafını təmin edən ana xətt olub, idarəedilməsi olduqca mürəkkəb və məsuliyyət tələb edən sahədir. Respublikamızda məktəblərin idarə olunması dövlətin və cəmiyyətin idarəetmə prinsipləri əsasında həyata keçirilir. Təhsilin idarəolunması və ona rəhbərlik edilməsi sahəsində dövlət və özünüidarə sistemi yaradılmışdır. İdarəetmə və rəhbərlik anlayışı bir-birindən fərqli mənalar kəsb edir. Məktəbşünaslıqda "idarəetmə" anlayışı optimal nəticələri əldə etmək məqsədi ilə məktəb işlərinin planlı, mütəşəkkil, müntəzəm təmin və təşkil etmək, məktəb daxilində baş verən münasibətləri, olduqca mürəkkəb pedaqoji, metodiki və psixoloji proses və problemləri məqsədyönlü və şüurlu sürətdə tənzimləməkdir. İdarəetmə ilə əlaqəli işlər bir neçə mərhələdən ibarət olur.

Fəaliyyət prosesi nəzarətdə saxlanılır və yeri gəldikcə müəyyən istiqamətləndirmə və stimullaşdıma tədbirləri həyata keçirilir. Son olaraq isə, fəaliyyətin nəticələri ümumiləşdirilir, təhlil edilib qiymətləndirilir və müavafiq nəticələr çıxarılır. Bu nəticələrdən gələcək fəaliyyət prosesində istifadə olunma ehtimalı aşkara çıxarılır, nəticənin yararlılığı və perspektivləri müəyyən olunur. Bütün bu proseslərdə idarəedən aspekt yəni, rəhbərlik aparıcı mövqedən çıxış edir. "Rəhbərlik" anlayışının pedaqoji təhlilinə varsaq, onun əhatə dairəsinin daha geniş olduğu qənaətinə gələrik. Belə ki məktəbşünaslığa istinadən rəhbərlik- məktəbi idarəetmənin əsas xətlərini, başlıca vəzifələrini müəyyənləşdirmək, prosesə istiqamət vermək və başçılıq etmək deməkdir.

Buradan da aydın olur ki, rəhbər-idarəetməni həyata keçirən şəxs olub, əmr vermək, qərar qəbul etmək və sərəncam vermək səlahiyyətinə malikdir. İdarəetmənin obyektivliyi rəhbərin rəhbərlik fəaliyyətindən çox aslıdır. Məktəbə rəhbərlik edilməsi eyni zamanda rəhbərlik obyektlərinə planlı, məqsədəmüvafiq təsirlərin göstərilməsi, təlim-tərbiyənin vəziyyəti ilə bağlı informasiyaların toplanılması, işlənilməsi və təlim-tərbiyə fəaliyyətinin gələcəkdə daha da inkişaf etdirilməsi istiqamətində müvafiq qərarların verilməsi proseslərini də əhatə edir. Məktəbin ali orqanı pedaqoji şuradır. Ən mühüm məsələlər pedaqoji şurada həll olunur [2, səh.204].

Məktəb həyatının əsas problemləri humanist, demokratik prinsiplər əsasında kollegial orqanlar olan məktəb və pedaqoji şuralarda həll edilir. İdarəedici tərəf rəhbər və kollegial orqanlar nə qədər operativ, səriştəli və peşəkar fəaliyyət göstərərsə, məktəbin idarəetmə fəaliyyəti də o qədər müvəffəqiyyətlə icra olunar. Müasir məktəblərimizdə idarəetmənin təşkili və reallaşdırılmasında kollegial orqanların təşkilatçılıq fəaliyyəti ön plana çəkilmişdir. Kollegial orqanlar olan pedaqoji şura, metodbirləşmələr, valideyn komitəsi, istehsalat müşavirəsi, direktoryanı müşavirə sırasına məktəb konfransı, məktəb şürası da daxil edilmişdir. Sayından və funksiyasından asılı olmayraq bütün kollegial orqanlar məktəbin düzgün idarəedilməsinə xidmət edir. Kollegial orqanların idarəetmə fəaliyyəti məktəb rəhbərlərinin təşkilatçılıq fəaliyyətindən və idarəetmə fəaliyyətindən təcrid edilə bilməz.

*Ədəbiyyat*

1. Allahverdiyeva F.M., Tağıyeva S.S. Pedaqogika. *Dərs vəsaiti*. Bakı: Elm və təhsil, 2018, 408 s.

2. İsmixanov M. A. Məktəbin idarə edilməsi. *Dərs vəsaiti*. Bakı: BDU, 2012, 319.